UOT 339.9
https://doi.org/10.30546/3006-0346.2025.3.87.610

# TRANSREGİONAL SƏVİYYƏDƏ AZAD TİCARƏT MÜNASİBƏTLƏRİNİN RƏQABƏT VƏ İNTEQRASİYA ASPEKTLƏRİ

**MURAD AXUNDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, doktorant*
*E-mail: makhundov77@gmail.com*
*ORCID: 0009-0009-8266-9501*

## Giriş

Transregionalizm meyllərinin yaranmasının səbəbləri kifayət qədər genişdir. Bunlar arasında son qlobal maliyyə-iqtisadi böhran nəticəsində proteksionizm meyllərinin atması, regional dəyər zəncirlərinin quruluşunda yeni konfiqurasiyaların yaranması, rəqəmsal və yaşıl iqtisadiyyat tələblərinin güclənməsi kimi vacib meylləri qeyd etmək olar. Proteksionist tədbirlərin tətbiq olunması vasitəsilə ən çox qorunan sənaye sahələrinin maşınqayırma və kənd təsərrüfatına aid olması xüsusilə diqqəti cəlb edir. Müasir transregional alyanslar, xüsusən də dünyada ən böyük tərəfdaşlıq formatı hesab olunan - TPP, RCEP, T-TIP, digər əksəriyyəti isə azad ticarət sazişləri (FTA) kimi təyin olunur. Transregionalizmin gələcək ssenariləri, geoiqtisadi nəticələri və regional iqtisadi inteqrasiya proseslərindən faydalanma imkanlarının genişləndirilməsi dünya iqtisadiyyatının mürəkkəb iqtisadi problemlərdən birini təşkil edir.

## 1. Qlobal iqtisadi məkanın transregionallaşması: aktuallığı, üstünlükləri və ziddiyyətləri

Son onilliklərdə qlobal iqtisadiyyatın inkişafının səciyyəvi xüsusiyyətlərindən biri müxtəlif regionlara aid ölkə qruplarını əhatə edən regionallaşma proseslərinin güclənməsi olmuşdur. Regional qarşılıqlı fəaliyyətin inkişafı qlobal iqtisadiyyatda yeni bir fenomenin - transregionalizmin yaranmasının əhəmiyyətindən danışmağa imkan verir ki, onun prioriteti ilk növbədə ərazi yaxınlığı və ümumi sərhədlərin mövcudluğu deyil, iqtisadi maraqların ümumiliyidir. Eyni zamanda yeni nəqliyyat və kommunikasiya şəbəkələrinin inkişafı şəraitində coğrafi yaxınlığın ənənəvi həlledici iqtisadi rolu dəyişir. Transregional layihələr sayəsində iqtisadi əlaqələr intensivləşir və coğrafi amilin rolundan istifadəyə geoiqtisadi cəhətdən daha geniş imkanlar yaranır.

Birləşmiş Ştatlar, Avropa İttifaqı, Yaponiya və hətta Çin kimi böyük iqtisadiyyatlar ticarət maraqlarını Trans-Sakit Okean Tərəfdaşlığı (TPP), Transatlantik Ticarət və İnvestisiya Tərəfdaşlığı (TTIP) və Regional Hərtərəfli İqtisadi Tərəfdaşlıq (RCEP) daxil olmaqla, meqa-regional miqyaslı sazişlərə yönəldiblər (cədvəl 1).

**Cədvəl 1. Dünyada ən böyük transregional alyansların ticarət tərəfdaşlığı potensialı**

| Transregional sazişlər | Əhatə dairəsi | İqtisadi potensialı | Mənfi təsirləri |
|---|---|---|---|
| **Regional Hərtərəfli İqtisadi Tərəfdaşlıq (“RCEP”)** [1] 2020-ci ildə imzalanıb və 2022-ci ildə qüvvəyə minib. | 16 ölkəni əhatə edir. ASEAN-ın 10 Üzv Dövləti (Bruney, Kamboca, İndoneziya, Laos, Malayziya, Myanma, Filippin, Sinqapur, Tailand və Vyetnam) və 6 FTA tərəfdaşı (Avstraliya, Yaponiya, Çin, Yeni Zelandiya, KoreyaRespublikası, Hindistan). | Qlobal ÜDM-in 30%-ni və dünya əhalisinin üçdə birini təşkil edən ən böyük azad ticarət zonasıdır. RCEP danışıqlarına daxildir: ticarət, investisiya, texniki əməkdaşlıq, əqli mülkiyyət, rəqabət, e-ticarət, KOB və s. | Yaponiya, Yeni Zelandiya və Avstraliyadan subsidiyalı məhsulların rüsumsuz idxalı aqrar sektorda dolanışıq vasitələrini təhdid edəcək. Hindistan və Vyetnam çox təsirlənəcək. |
| **Trans-Sakit Okean Tərəfdaşlığı (TPP)** [2]. 2017-ci ildə D.Tramp ABŞ-ın sazişdən çıxması haqqında sərəncam imzalayıb. | 2015-ci ildə Sakit okean hövzəsinin 12 ölkəsi ən əhatəli regional ticarət sazişi olan TPP üzrə danışıqları yekunlaşdırdı: Avstraliya, Bruney, Kanada, Çili, Yaponiya, Malayziya, Meksika, Yeni Zelandiya, Peru, Sinqapur, ABŞ və Vyetnam. | Hamı tərəfindən ratifikasiya olunarsa, saziş 2030-cu ilə qədər üzv ölkələrdə ÜDM-i orta hesabla 1,1 faiz artıra bilər. Həmçinin 2030-cu ilə qədər üzv ölkələrin ticarətini 11 faiz artırmaqla regional ticarətə təkan verə bilər. | Yüksək gəlirli sahələrin daha cox qazanc əldə etməsi; patent razılaşması ucuz generikləri azalda və dərmanların qiymətini qaldıra bilər; ətraf mühitin qorunması üçün stimulların azaldılması. |
| **Transatlantik Ticarət və İnves-tisiya Tərəfdaşlığı (TTIP)**[3]. 2017-ci ildən bəri TTIP danışıqları raundu dayandırılıb. | TTIP ABŞ və Aİ arasında müzakirə edilən hərtərəfli və yüksək standartlı ticarət və investisiya sazişidir. TTIP üzrə danışıqlar 2013-cü ildə Atlantik okeanının hər iki tərəfinin böyük siyasi dəstəyi ilə başladı [4]. | TTIP ABŞ sənaye istehsalı üçün Avropa bazarlarına çıxışı artırmağa kömək edəcək. TTIP transatlantik ticarət və investisiyalar tərəfindən dəstəklənən 13 milyondan çox iş yerini yarada bilər. | Saziş iş yeri və ətraf mühit standartlarının aşağı düşməsinə səbəb ola bilər. Sazişın dövlət və investor münasibətləri bölməsi Aİ-də ən mübahisəli məsələ kimi görünür. |
| **BRİCS**[5]. 2009-cu ildə Rusiyada BRIC-in ilk sammiti keçirildi. | BRİCS Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasından ibarət transregional qrupdur. | BRİCS 3 milyard insanı əhatə edir və ÜDM-i 16 trilyon dollar təşkil edir. Aİ və ABŞ-dan sonra “üçüncü nəhəng”dir. | BRİCS ölkələri iqtisadi və siyasi gücü baxımından çox fərqlidirlər və çox az sinerjiyə malikdirlər [6]. |

*Müəllif tərəfindən [1,2,3, 4,5 və 6] mənbələr əsasında tərtib edilmişdir.*

2009-cu ildən bəri BRİCS hər il toplanır və əhəmiyyətli bir geosiyasi bloka çevrilir. Azərbaycan 20 avqust 2024-cü ildə BRİCS-ə üzvlük üçün müraciətini açıqlayıb və müraciət Rusiya tərəfindən dəstəklənib. Ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatı və BRİCS formatında münasibətləri əhəmiyyətli dərə-

cədə aktualdır. Azərbaycan-Çin ikitərəfli əlaqələri strateji xarakter alır və digər transregional təşəbbüslər çərçivəsində əməkdaşlıq məsələlərinin əhəmiyyəti artır.

**2. Meqa-regional ticarət sazişlərinin riskləri və faydaları nəzəri tədqiqatlarda birmənalı qiymətləndirilmir.**

Beynəlxalq ticarət meqaregional miqyasda əvvəllər görünməmiş şəkildə dəyişir. Getdikcə çoxsaylı regional və meqa-regional azad ticarət sazişlərinin ortaya çıxması ilə qlobal bazarlarda böyük ticarət bloklarının iştirakçılarının maraqları üçün risklər yarana bilər. Misal üçün TTIP-in üçüncü ölkələrə mənfi təsirləri gözlənilləndir. Belə ki, meqaregionalizm ənənəvi regional inteqrasiya nəzəriyyəsindən kənara çıxır və onun sənaye, tədqiqat və innovasiya, rəqabət qabiliyyəti, iqlim dəyişikliyi və sosial hüquqlarla bağlı siyasətlərlə qarşılıqlı əlaqəsi aktuallaşır. Tədqiqatımız megaregional ticarət sazışlərindəki mövcud problemləri və boşluqları müəyyən edir və ümumi olaraq aşağıdakı nəticələri müəyyən etməyə imkan verir:

-Birincisi, megaregional birliklərin daxili azad ticarət siyasəti ilə regiondan kənar siyasətləri arasında koordinasiya və sinerjinin olmaması maraq konfliktinə səbəb olur.

-İkincisi, megaregional birliklərin daxili azad ticarət siyasətinin müsbət təsirləri də qeyri-bərabər paylanır ki, bu da ölkələr daxilində bərabərsizliyin artmasına səbəb olur.

-Üçüncüsü, artan sayda proteksionizm alətləri və rəqabət aparan idarəetmə modelləri inzibati mürəkkəbliyi daha da artırır.

Azad ticarət sazişlərinin iqtisadi nəticələrinə dair müxtəlif fikirlər mövcuddur. Bu sazişlərin bir çoxu hökumətlərdən öz siyasət sahəsinin genişlənməsindən imtina etməyi tələb edir. Onların istifadəsini məhdudlaşdırmaq ölkələrin maraqlarına təsir edir. Eyni məsələni meqa-regional səviyyəli əksər sərhədyanı siyasətlər üçün söyləmək olmaz. Qlobal nöqteyi-nəzərdən düzgün təyin olunarsa, yerli vergilər, subsidiyalar və qaydalar əsas bazar uğursuzluqlarını həll etmək üçün ən yaxşı siyasətdir. Meqa-regional danışıqlarda tələskənlik düşünülməmiş məhdudiyyətlər yarada bilər [7]. Misal üçün nəzəri olaraq, ABŞ və Aİ arasında ticarət ucuzlaşdıqdan sonra TTIP ölkələri təbii olaraq kənar ölkələrlə deyil, bir-birləri ilə daha çox ticarət etməyə meylli olacaqlar. Almaniya Ifo İnstitutunun professoru Qabriel Felbermayr tərəfindən aparılan araşdırmanın nəticələrinə baxsaq, bu cür ticarət yönləndirməsinin xüsusilə Çin və Asiya regionu ətrafındakı ölkələrə necə mənfi təsir etdiyini aydın görə bilərik [8].

Transregional tərəfdaşlıq münasibətlərində həssas mövzulardan biri valyuta məsələləri təşkil edir. BRİCS və qərb siyasətçilərinin yanaşmalarındakı həlledici fərqlərə görə ödəniş mexanizminin yaradılması müzakirə predmeti səviyyəsindən çox uzağa gedə bilmədi. Bu məsələnin nəzəri və praktiki əsası vardır. BRİCS ölkələri arasında iqtisadi asimmetriyalar təbiidir, milli valyutalarda aparılan zaman blok daxilində ticarətin dərinləşməsinə mane ola bilər. Buna görə də, BRİCS çərçivəsində universal mübadilə vasitəsinin yaradılması mühüm əhəmiyyət kəsb etsə də, xüsusən də ənənəvi Qərb perspektivlərindən baxdıqda sözün tam mənasında "vahid valyuta" yaratmaqdan söhbət gedə bilməz. Hesablaşmalar üçün BRİCS valyutalarından birinin ayrılması da qeyri-mümkündür, çünki bu, əhəmiyyətli bir siyasi qərarı ehtiva edir. Məsələn, Çin yuanının bu rola xidmət etməsi ilə bütün BRICS üzvləri razı olmaz. Bu yanaşma mövcud sistemin əsas məsələsini həll edə bilmir və mahiyyətcə ABŞ kimi başqa bir dominant güc yaradır. Üstəlik, Çin daim ticarət kəsiri yaşayan yeni Amerika olmağa razı olmazdı [9].

Qloballaşma proseslərində olduğu kimi, transregional tərəfdaşlıqların inkişafının bir sıra problem və ziddiyyətlərinə də elmi tədqiqatlarda nəzər salınır. 1990-cı illərə təsadüf edən bu fenomen, dövlətlərarası ittifaqlarla bağlı rəqabətli regionalizmi tədqiq edən elmi işlərin əksəriyyəti çoxtərəfli regional ticarət sazişlərinin (RTA-ların) sayının kəskin artdığı [10] və transregional ittifaqların meydana çıxmağa başladığı 2000-2010-cu illərdə daha da genişlənmişdir [11]. Bununla bağlı analitik tədqiqatlarda və ekspertlərin yanaşmalarında qlobal iqtisadiyyat üçün əsas risklər qeyd olunur və bildirirlər ki, proses az sayda ölkələri əhatə edir və əksər inkişaf etməkdə olan ölkələrdən yan keçir. Bir sıra yanaşmalara görə əksər inkişaf etməkdə olan ölkələrin özlərini yeni transregional alyanslardan kənarda qalması iqtisadi bərabərsizlik problemini daha da kəskinləşdirəcək [12].

Tənqidi yanaşmaların digər mühüm cəhəti transregionalizmin korporativ yönümlü olmasıdır. Başqa sözlə, bu meqa-tərəfdaşlıqlar böyük TMK-ları hə-

dəfləyir və iştirakçı ölkələrdə insan potensialının inkişafına kömək etmir, sənayeni dəstəkləmir və ya ayrı-ayrı regionların inkişafına kömək etmir[13]. Beləliklə qlobal iqtisadi məkanın transregonallaşması əhəmiyyətli üstünlüklərlə yanaşı, eyni zamanda bir sıra ziddiyyətlərə malik prosesdir.

### 3. Dünya ticarətinin ən yeni meylləri və rəqabət gücləri arasında ticarət konfliktləri

Dünya ticarətinin ən yeni meyllərdən birini rəqabət gücləri arasında mövqelərin gücləndirilməsi uğrunda baş verən ticarət konfliktləri təşkil edir. Bu zaman oyun qaydalarını "bazarın görünməz əli" ilə deyil, tarif müdafiəsi və proteksionist siyasət vasitələri müəyyən edir. Təsadüfi deyil ki, hazırda ABŞ qlobal iqtisadiyyatda yeni ticarət strategiyasının iki baza istiqamətini açıqlamaqdadır.

Birinci məqsəd ABŞ sənayesinin həlledici sektorlarını canlandırmaqdır. Sözügedən əsas sektorlara, ilk növbədə, alüminium, polad, yarımkeçiricilər, avtomobil sənayesi və s. məhsullar aiddir. Birləşmiş Ştatlar hesab edir ki, qeyd olunan sahələrdə onun daxili potensiala malik olması lazımdır. Bu sənayeləri qorumaq və zəruri potensialı yaratmağın yolu ABŞ-da istehsal üçün iqtisadi stimulları təmin etməkdir.

İkinci məqsəd dəyişən dünya şəraitində qlobal ticarəti yenidən balanslaşdırmaqdır. 20-ci əsrin son onilliklərində Avropada sənaye və innovativ klasterlər fəal şəkildə formalaşmağa başladı. Keçmiş sənaye nəhənglərinin yerində sənaye parkları və texnoparklar yarandı ki, bu da beynəlxalq ticarətdə yeni istehsal və texnoloji zəncirlərin formalaşması üçün əsas oldu [14]. Avropa İttifaqı, Yaponiya, Çin və Böyük Britaniya ABŞ iqtisadiyyatı ilə müqayisədə inkişaf xüsusiyyətləri baxımından fərqlərə malikdir, eyni zamanda aşağı maaşlı iqtisadiyyatlar deyil (cədvəl 2). Çin hökumətində azad ticarət müqavilələri, xarici və daxili iqtisadiyyatı inteqrasiya etmək və iqtisadi əməkdaşlığı gücləndirmək üçün mühüm vasitə hesab olunur [15]. Hazırda Çinin 24 azad ticarət sazişi var, bunlar arasında isə 16 saziş imzalanmış və həyata keçirilmişdir.

Aİ iqtisadiyyatı ABŞ-dan daha aşağı iqtisadi dinamizm, araşdırma və tədqiqat xərcləri və daha yüksək enerji xərcləri xarakterikdir. Nəticədə ortaya çıxan mənzərə Aİ siyasətçiləri üçün narahatlığa səbəb olur [16].

**Cədvəl 2. Dünya iqtisadiyyatının iqtisadi güc mərkəzləri və azad ticarət münasibətləri (2025)**

| Ölkələr | ÜDM trln dol | Adam başına ÜDM min dol | Azad ticarət müqavilələrinin sayı, o cümlədən transregional səviyyəli | Ümumi Açıqlıq İndeksi (bütün aktiv kateqoriyalarda) | İnnovasiya və iqtisadi inteqrasiya indeksi | İnsan kapitalı və əmək bazarı indeksi | İxrac diversifikasiya indeksi |
|---|---|---|---|---|---|---|---|
| ABŞ | 30,51 | 89,11 | 14 (USMCA) [17] | 0,82 | 0,18 | 0,18 | 1,72 |
| Avropa İttifaqı | 19,99 | 44,22 | 41[18] (MERCOSUR) | - | 0,16 | 0,16 | 2,12 |
| Çin | 19,23 | 13,69 | 16 (RCEP, ASEAN) [19] | 0,09 | 0,15 | 0,15 | 2,01 |
| Yaponiya | 4,19 | 33,96 | 16 (əlavə iki- Aİ və ASEAN) [20] | 0,91 | 0,18 | 0,17 | 2,12 |
| Böyük Britaniya | 3,84 | 54,95 | 39 (CPTPP) [21] | 0,8 | 0,16 | 0,17 | 1,95 |

*Müəllif tərəfindən sistemləşdirilib. Mənbə: Country Data Profile, World Economıc Outlook (Aprıl 2025) https://www.imf.org/external/datamapper/profile*

Aİ-nın azad ticarət müqavilələri məzmununa görə fərqlənir [22]: İqtisadi Tərəfdaşlıq Sazişləri (EPAs) - Afrika, Karib və Sakit okean ölkələrindən ticarət tərəfdaşlarının inkişafına dəstək; Azad Ticarət Sazişləri (FTAs), Assosiasiya Sazişləri (AA), həmçinin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri (PCA) daha geniş sövdələşmələrin bir hissəsi kimi qeyri-preferensial ticarət sazişləri bağlayır.

Aİ-nin ABŞ ilə əlaqələri müsbət ticarət balansına malikdir. ABŞ-nı narahat edən məqamlara gəldikdə, hər şeydən əvvəl, alüminium, polad, yarımkeçiricilər, avtomobillər kimi kritik sənayelərdən bəhs olunur. Prezident Tramp hesab edir ki, Birləşmiş Ştatların daxili potensiala malik olması lazımdır və bu sənayeləri qorumaq və bu potensialı yaratmağın yolu ABŞ-da istehsal üçün iqtisadi stimullar təmin etməkdir [23]. D.Tramp 10 fevral 2025-ci ildə polad, alüminium və törəmə məhsulların idxalına 25% rüsum tətbiq edəcəyini açıqladı. Avropa Komissiyasının Prezidenti Fon Der Leyen dərhal xəbərdarlıq etdi ki, bu cür tariflər "biznes üçün və xüsusən də istehlakçılar üçün daha pisdir" və möhkəm və mütənasib Avropa reaksiyasına səbəb olacaq. ABŞ-nin bu tarifləri martın 12-də tətbiq edilib. ABŞ-da 25%-ə qədər tariflər sənaye polad və alüminium, digər polad və alüminium yarımfabrikat və hazır məhsullara, həmçinin onların törəmə kommersiya məhsullarına tətbiq edilir.

Lakin Avropa İttifaqı Aİ-ABŞ danışıqlarına vaxt və məkan vermək üçün ABŞ-nin əsassız ticarət tarifləri ilə bağlı əks tədbirlərini dayandırıb [24]. Aİ Komissiyasının məlumatlarına əsasən, Aİ-nın dayandırılmış əks tədbirləri ABŞ ixracatının 21 milyard avrosunu əhatə edir. Qlobal təsirlərə gəldikdə

müxtəlif reaksiyalar müşahidə olunur və yeni taariflər təhlükəsi altında olan Aİ ölkələri öz strategiyaslarını yenidən nəzərdən keçirməyə başlayır. Eyni zamanda, Kanada müdafiə sahəsində əməkdaşlıqda mümkün fəsadları gözləyərək, artıq bəzi alternativlər axtarır. Bu, qlobal ticarətin əsaslı formatlaşdırılmasının yalnız başlanğıcı hesab oluna bilər. Eləcə də Çin və Kanada arasında hazırda mini ticarət müharibəsi aparılır. Çin Kanadaya tariflər tətbiq etdikdən sonra Kanada bir sıra qarşılıqlı və ya cavab tarifləri tətbiq etmişdır. Qlobal olaraq hesab edilir ki, dünya ticarət balansı təmin oluna bilmir.

Beləliklə, formalaşmış ticarət status-kvosu dünya ölkələri üçün faydalı olsa da, ABŞ maraqlarını təmin etmir və yeni status-kvo quruculuğunu qarşıya qoyur. ABŞ iqtisadiyyatında sənaye istehsalının azalması (deindustrialization), fabrikləri, iş yerlərini, sənaye potensialını başqa ölkələrə miqrasiyasının nəticələri hesab olunur. Lakin ABŞ-nin bir sıra mühüm sektorda ən qabaqcıl oyunçulardan biri kimi mövcud göstəricilərinə siyasətçilərin və analitiklərin fərqli yanaşmaları da mövcuddur. Sektorun daha az amerikalını işlətməsi və iqtisadi fəaliyyətin əvvəlki illərlə müqayisədə daha az faiz təşkil etməsi, əsasən məhsuldarlığın artması və istehlakçı seçimlərində xidmətlər və daha az maddi sərvətlərin xeyrinə dəyişikliklərlə bağlıdır. Bundan əlavə, ABŞ-nin bəzi bölgələrində, o cümlədən «Pas Kəməri» (Rust Belt) adlanan fabriklərin bağlanması beynəlxalq deyil, yerli dəyişiklikləri əks etdirir, çünki istehsal daha səmərəli istehsal mərkəzləri hesab edilən yerlərə köçürülür [25].

Aİ – də daxili regional bərabərsizlikləri azaltmaq istiqamətində institutlar strategiyanı təkmilləşdirməyə çalışırlar. Bu məsələnin həlli inteqrasiya siyasətinin digər siyasətlərlə necə qarşılıqlı əlaqədə olmasından asılı olacaq [26].

## Nəticə və təkliflər

Aparılan araşdırmanın nəticələrinə əsasən transregional səviyyəli azad ticarət və iqtisadi əməkdaşlıq proseslərinin inkişafı hər şeydən əvvəl regional bərabərsizliklərin azaldılması yolları ilə təmin oluna bilər. İnkişaf etmiş iqtisadi güc mərkəzlərinin regional siyasətlərinin status-kvoya, rəqabətə və inteqrasiyaya aktiv təsirlərinin nəticələri regional bərabərsizlikləri necə dərinləşdirməsini anlamağa kömək edər.Bu araşdırmada tədqiq edilən yeni meyllər iqtisadi regionalizmin transformasiyasından və ya onun ayrı-ayrı elementlərinin inteqrasiyasından asılı olaraq, aşağıdakı tədbirlərlə regional əməkdaşlıq problemlərinin həllinə kömək edə bilər:

- ərazi təsirinin qiymətləndirilməsi aparılmalıdır. Ərazi təsirinin qiymətləndirilməsi transregional layihələrin həyata keçirilmə mərhələlərində assimetriya və fərqliliklərin miqyasının dərinləşməsinin qarşısını ala bilər;
- regional inteqrasiyaya nail olmaq təkcə milli siyasətinin vəzifəsi deyil və onun müvəffəqiyyəti bütün digər tərəflərin faydalı və bərabərtərəfli siyasətlərinin yaxınlaşdırılmasına birgə töhfəsindən asılıdır. İnteqrasiyaya töhfə verməsini və regional bərabərsizlikləri daha yaxşı həll etməsini təmin etmək üçün azad ticarət siyasətinin yeni dizaynı milli və regional maraqların vəhdətinə əsaslanmalıdır;
- rəqabət strategiyalar üçün sektoral yanaşmanın təmin edilməsi. Burada diqqət rəqabət qabiliyyətinin, iqtisadi artımın və məşğulluğun artırılmasına, potensial olaraq transregional inkişaf məqsədlərinə yönəldilməlidir.

Azərbaycan beynəlxalq və regional iqtisadi inteqrasiya proseslərində iştirakını azad və milli maraqların tam təmini prinsipləri əsasında həyata keçirir. Dünya iqtisadiyyatının müasir meyllərindən faydalanma və yeni perspektivlərin təmini məqsədilə transregional miqyaslı ticarət və kommunikasiya sistemlərinə inteqrasiya mexanizmlərinin təkmilləşdirilməsi strateji əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT SİYAHISI:


*[1] Regional Comprehensive Economic Partnership (RCEP) https://www.mti.gov.sg/Trade/Free-Trade-Agreements/RCEP ,https://asean.org/our-communities/economic-community/integration-with-global-economy/regional-comprehensive-economic-partnership-rcep/*

*[2] Potential Macroeconomic Implications of the Trans-Pacific Partnership, https://thedocs.worldbank.org/en/doc/847071452034669879-0050022016/original/GlobalEconomicProspects-January2016ImplicationsTransPacificPartnershipAgreement.pdf*

*[3] Transatlantic Trade and Investment Partnership (T-TIP), https://ustr.gov/ttip*

*[4] Transatlantic Trade And Investment Partnership (TTIP), https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2015/544564/EXPO_BRI(2015)544564_EN.pdf*

*[5] History of BRICS, https://infobrics.org/page/history-of-brics/*

*[6] 5 factors limiting the impact of the BRICS nations, Jul 8, 2015, https://www.weforum.org/stories/2015/07/5-factors-limiting-the-impact-of-the-brics-nations/*

*[7] Chad P. Bown, Mega-Regional Trade Agreements and the Future of the WTO, , First published: 07 February 2017, https://doi.org/10.1111/1758-5899.12391, https://onlinelibrary.wiley.com/doi/full/10.1111/1758-5899.12391*

*[8] Fritz Putzhammer March 29, 2015 TTIP, TTP and the Formation of a New World Trade Order, https://globaleurope.eu/globalization/ttip-ttp-formation-new-world-trade-order/*

*[9] Rais Hussin, BRICS' Currency Dilemma: A Necessary Quality Leap Beyond the Dollar, 16/09/2024, https://www.emirresearch.com/brics-currency-dilemma-a-necessary-quality-leap-beyond-the-dollar/ (04.05.2025)*

*[10] Baldwin R., Low P. (2009) Multilateralizing Regionalism: hallenges for the Global Trading System. Cambridge University Press*

*[11] Keating M., Loughlin J. (2013) The Political Economy of Regionalism. Business & Economics.*

*[12] Wood A. (2015) Trade Reform and the Development Defi cit Beyond 2015: Mega-regional Trade Agreements and their Impact on Developing Country Third-Party Members. Paper prepared for the International Studies Association Global South Caucus. Singapore. 8–10 January. P. 5*

*[13] Nakagawa J. (2014) TPP, RCEP and Global Trade Governance (https://www.swp-berlin.org). P. 8.*

*[14] Mushfig Guliyev, Hijran Muradova, Leyla Hajiyeva, Lamiya Huseynova, Comparative Analysis of Marketing Strategies of Global Corporations in Industrial and Innovation Clusters in Europe and China, Strategic Change, 2025; 0:1–13https://doi.org/10.1002/jsc.2647*

*[15] Aliyev, M., Guliyev, M., Abdullaev, U., Huseynova, L., & Azizova, G. (2024). Strategies for improving the competitiveness of agricultural products and China's trade policy in the world market. Scientific Horizons, 27(11), 129-140. https://doi.org/10.48077/scihor11.2024.129*

*[16] If the EU was a State in the United States: Comparing Economic Growth between EU and US States, POLICY BRIEF – No. 07/2023 , By Fredrik Erixon, Oscar Guinea and Oscar du Roy, Director, Senior Economist and Research Assistant at ECIPE, respectively.*

*[17] U.S. Comprehensive Free Trade Agreements and Other Trade Agreements https://www.cbp.gov/trade/priority-issues/trade-agreements/free-trade-agreements (13 may 2025)*

*[18] Global Europe The value of free and fair trade, https://www.consilium.europa.eu/fr/global-europe-the-value-of-free-and-fair-trade/*

*[19] China FTA Network, http://fta.mofcom.gov.cn/english/index.shtml, (13 may 2025)*

*[20] Trade Agreements, https://www.trade.gov/country-commercial-guides/japan-trade-agreements (13 may 2025)*

*[21] The UK's trade agreements, https://www.gov.uk/government/collections/the-uks-trade-agreements*

*[22] EU trade agreements, https://www.consilium.europa.eu/en/policies/trade-agreements/#:~:text= EU%20 trade%20agreements%20shape%20 trade,and%20overcome%20barriers%20to%20trade.*

*[23] Transcript: Secretary of State Marco Rubio on "Face the Nation with Margaret Brennan," March 16, 2025, https://www.cbsnews.com/news/marco-rubio-secretary-of-state-face-the-nation-transcript-03-16-2025/ (retrieved 10 may 2025)*

*[24] EU pauses countermeasures against US tariffs to allow space for negotiations, Apr 14, 2025 Brussels, https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_25_1058*

*[25] The Reality of American "Deindustrialization", October 24, 2023 • Publications By Colin Grabow,https://www.cato.org/publications/reality-american-deindustrialization*

*[26] Lenka Jančová and Christa Kammerhofer-Schlegel and Marco Centrone, The future of EU cohesion: Scenarios and their impacts on regional inequalities, Cost of non EuropeEPRS | European Parliamentary Research Service, European Added Value Unit PE 762.854 – December 2024, https://www.europarl.europa.eu/RegData/etudes/STUD/2024/762854/EPRS_STU(2024)762854_EN.pdf*

**XÜLASƏ**

Məqalədə qlobal iqtisadi məkanın köklü şəkildə transformasiyasına səbəb olan transregionallaşma proseslərinin xüsusiyyətləri təhlil edilir. Tranregionallaşma prosesi iki aspektdə nəzərdən keçirilir. Bi-

rincisi, regionalizmin inkişafı və beynəlxalq ticarət sisteminə inteqrasiya problemləri işıqlandırılır. İkincisi transregionalizmin təbiəti açıqlamaqla göstərilir ki, yaxın keçmişədək bəzi regional alyanslara üzvlük faktiki olaraq digərlərində iştiraka mane olurdu. Təqdim olunan məqalənin əsas töhfəsini transregionalizmin rəqabət və inteqrasiya aspektlərini izah edən arqumentlərin irəli sürülməsi və transregional inteqrasiya layihələrinin asimmetriyasının nəticələri təşkil edir. Rəqabət üstünlüklərinin meqaregional azad ticarətə təsirləri araşdırılır. Ümumdünya Ticarət Təşkilatının (ÜTT) çoxtərəfli ticarət sistemində azad ticarət münasibətlərinin gücləndirilməsinin konseptual istiqamətləri təklif olunur.

**Açar sözlər:** *Azad ticarət sazişləri (FTA), transregional alyanslar, proteksionizm, qlobal iqtisadi məkan, ÜTT.*

**JEL:** *F15; F16;F63; L51;O19*

**Murad Akhundov**
***Doctoral Student, The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***
***E-mail: makhundov77@gmail.com***
***ORCID:0009-0009-8266-9501***

## Competitive and integration aspects of free trade relations at the transregional level

### SUMMARY

The article analyzes the characteristics of trans regionalization processes that have led to a radical transformation of the global economic space. The trans regionalization process is considered in two aspects. First, it highlights the development of regionalism and the problems of integration into the international trade system. Second, it reveals the nature of trans regionalism, showing that until recently, membership in some regional alliances actually prevented participation in others. The main contribution of the presented article is the presentation of arguments explaining the competitive and integration aspects of trans regionalism and the consequences of the asymmetry of trans regional integration projects. The effects of competitive advantages on mega regional free trade are studied. Conceptual directions for strengthening free trade relations in the multilateral trading system of the World Trade Organization (WTO) are proposed.

**Keywords:** *Free trade agreements (FTAs), transregional alliances, protectionism, global economic space, WTO.*

**JEL:** *F15; F16;F63; L51;O19*

**Мурад Ахундов**
***докторант, Академия государственного управления при Президенте Азербайджанской Республики***
***E-mail: makhundov77@gmail.com***
***ORCID:0009-0009-8266-9501***

## Конкурентные и интеграционные аспекты отношений свободной торговли на трансрегиональном уровне

### РЕЗЮМЕ

В статье анализируются особенности процессов транс регионализации, приведших к радикальной трансформации мирового экономического пространства. Процесс транс регионализации рассматривается в двух аспектах. Во-первых, освещаются развитие регионализма и проблемы интеграции в международную торговую систему. Во-вторых, необходимо прояснить природу транс регионализма, показав, что до недавнего времени членство в некоторых региональных альянсах фактически исключало участие в других. Основным вкладом представленной статьи является изложение аргументов, объясняющих конкурентные и интеграционные аспекты транс регионализма и последствия асимметрии транс региональных интеграционных проектов. Изучается влияние конкурентных преимуществ на мега региональную свободную торговлю. Предложены концептуальные направления укрепления отношений свободной торговли в многосторонней торговой системе Всемирной торговой организации (ВТО).

**Ключевые слова:** *Соглашения о свободной торговле (ССТ), транс региональные альянсы, протекционизм, глобальное экономическое пространство, ВТО.*

**JEL:** *F15; F16;F63; L51;O19*